# "GÖZƏLLƏMƏ" ADLI SAZ HAVALARI

**Aşıq musiqilərini ad baxımından təhlil etdikcə "Gözəlləmə" adlı havalar diqqətimizi çəkir. Biz bu məqaləmizdə də məhz gözəlləmə adı daşıyan havaları təsbit etməyi qarşımıza məqsəd qoymuşuq.**

● **İlqar İMAMVERDİYEV,**
*sənətşünaslıq doktoru*

Məlumdur ki, "Gözəllə-mə"lər əsasən ülvi hisslər aşılayan, lirik-duyğulu, munis mahiyyətli, sevinc tərənnümlü, şənlik ifadə edən, şux xislətli, nikbin əhvali-ruhiyyəli havalar hesab olunur. Aşıq poeziyasında formasından və quruluşundan asılı olmayaraq əhval-ruhiyyə baxımından gözəlləmə ruhlu şeirlərə daha çox rast gəlinir.

S.Altaylının 1994-cü ildə İstanbulda yayınladığı II cild "Azərbaycan Türkcəsi sözlüyü" kitabının 562-ci səhifəsində bu barədə belə yazılır: "Gözelleme - Aşık edebiyatında güzeli terennüm eden, insan ve tabiat güzelliğini konu edinen şiir şekli".

Digər bir qaynaqda gözəlləmələr həm xalq ədəbiyyatında mövzusu eşq olan lirik şeir növü kimi, həm də insanların daxili sevinc hisslərinin melodik bir dillə ifadə edilən ayrıca bir musiqi türü kimi izah olunur. Türk dil qurumu tərəfindən 1988-ci ildə Ankarada yayınlanan "Türkcə sözlük" adlı I cild kitabın 589-cu səhifəsində gözəlləmə belə izah olunur: "1. Güzelleme - halk edebiyatında konusu aşk olan, lirik bir şiir türü. 2. Şen, sevinçli duyguları anlatan türkülerde özel bir ezgi".

Əsasən mənəviyyatca, daha sonra görkəm və qamətcə sərviboylu, işvəli, nazlı-qəmzəli gözəllərə, sevgiliyə, bununla belə təbiətə, əzəmətli uca dağlara, quşqonmaz yalçın qayalara, barlı-bəhərli bağlara, durna gözlü buz bulaqlara, göy yaylaqlara, əlvan rahiyəli güllərə, əsrarəngiz çiçəklərə həsr olunmuş poetik nümunələr tədqiqatçı aşıqşünaslar tərəfindən gözəlləmə şeirləri kimi qəbul olunmuşdur.

Aşıq musiqilərini əhvali-ruhiyyə baxımından təsnif etdiyimizdə bir qütbdə qəmli, kədərli ovqatlı, sızıltı içərikli, yanğılı ağır havalar, digər qütbdə isə igidlik tərənnüm edən, qəhrəmanlıq hissləri aşılayan, yağı düşmənlərə qarşı amansız döyüşə, mübarizəyə səsləyən çağırış intonasiyalı, qələbəyə inam hissləri yaradan saz havaları yer alır. Bu iki qütbün arasında isə qəmdən kədərdən bir az uzaq, igidlik, mərdlik, qəhrəmanlıq hissləri bir qədər az olan lirik, duyğusal musiqilər, gözəlləmə havaları orta mövqedə yer almaqdadır.

Qeyd etməliyik ki, "Baş müxəmməs", "Orta müxəmməs", "Baş sarıtel", "Orta sarıtel", "Qəmərcan", "Göyçəgülü", "Qəhrəmani" (Qəhrəmani - Bir çox aşıq tədqiqatçıları adın mənasına əsaslanaraq "Qəhrəmani" adlı saz havasını yanlış olaraq cəngi, döyüş, qəhrəmanlıq, igidlik, şücaət, tərənnüm edən, havalar qrupuna daxil edirlər. Halbuki, musiqinin melodik axarı, əhvali-ruhiyyəsi və xarakteri daha çox sevinc, şən-şux ovqatı ifadə etməkdədir) kimi havalar əhvali-ruhiyyə baxımından gözəlləmə ovqatlı havalar qrupuna daxil olsalar da, aşıq terminalogiyasında bu qəbildən olan havaların adında bi-

lavasitə gözəlləmə sözünə rast gəlmirik. Məsələn, "Baş sarıtel gözəlləməsi", "Orta müxəmməs gözəlləməsi" və s. Azərbaycan və İran aşıqlarının musiqi repertuarlarında gözəlləmə adı ilə ifadə olunan havaların isimlərini təsnif edərkən bir çox qrupların olması aşkara çıxır. Məlum olur ki, bir qrup gözəlləmələr şəxs adlarını özündə ehtiva etməkdədir. Bu şəxs adları təbii ki, gözəlləmə adlı havanı yaradan aşığın, eləcə də bu havanı daha gözəl ifa edən sənətkarın ismini öz adında əbədiləşdirmişdir. İkinci qrupdan olan bəzi gözəlləmə adlı havalar özündə ayrı-ayrı ölkə adlarını hifz etməkdədir. Gözəlləmələrin digər üçüncü qismi çeşidli bölgələrin, mahalların, o cümlədən bəzi şəhərlərin isimləri ilə tanınmaqdadır. Dördüncü qrupdan olan gözəlləmə adlı havalar da vardır ki, bəzi türk boylarının adını özündə yaşatmaqdadır. Beşinci qrupdan olan gözəlləmə adlı havalar bəzi dastan qəhrəmanının adını özündə qoruyub saxlamışdır. Təsbit etdiyimiz 38 adda gözəlləmə havalarının adlarına konkret nəzər salarkən bunu aydın görmək mümkündür.

1. Azaflı gözəlləməsi.
2. Gözəlləmə.
3. Yayma gözəlləmə.
4. Aşıq Ələsgər gözəlləməsi.
5. Köhnə gözəlləmə.
6. Kəsmə gözəlləmə.
7. Azərbaycan gözəlləməsi.
8. Aran gözəlləməsi.
9. Qızlar gözəlləməsi.
10. Həştəri gözəlləməsi.
11. Zəncan gözəlləməsi.
12. Tərəkəmə gözəlləməsi.
13. Qarağan gözəlləməsi.
14. Gəncə gözəlləməsi
15. Göyçə gözəlləməsi.
16. Şirvan gözəlləməsi.
17. Şirvanın orta gözəlləməsi.
18. Şəmkir gözəlləməsi.
19. Borçalı gözəlləməsi.
20. Ağır gözəlləmə.
21. Avdı gözəlləməsi.
22. Şirazi gözəlləməsi
23. Abbas gözəlləməsi.
24. Dəmir gözəlləməsi.
25. Vaqif gözəlləməsi.
26. Əhməd gözəlləməsi.
27. Həsən gözəlləməsi.
28. Əfşar gözəlləməsi.
29. İran gözəlləməsi.
30. İrəvan gözəlləməsi
31. İsfəndiyar gözəlləməsi.
32. Pənah gözəlləməsi
33. Mirzə gözəlləməsi
34. Toy gözəlləməsi.
35. Çuxuroba gözəlləməsi.
36. Kərəm gözəlləməsi.
37. Koroğlu gözəlləməsi.
38. Mixəyi gözəlləməsi.

Azərbaycan klassik aşıq havaları içərisində gözəlləmə adlı saz havalarının sayının 38 olması təbii ki, bu musiqilərin eyni sayda olmasını ifadə etmir. Ola bilsin ki, eyni melodiya bir çox aşıqların ifalarında fərqli adlar daşımaqdadır. Əsas məqsəd ustad sənətkarların repertuarında yer alan və hal-hazırda ifa olunan aşıq havalarını müasir cihazların vasitəsilə maqnitofon lentlərinə, SD-lərə yazdırıb konkret olaraq sayını təsbit etməkdən ibarətdir. Gələcəkdə bu qəbildən olan ənənəvi saz havalarının nota yazılması, onların ifa tərzinin, ifa üslubunun musiqi təhsili verən məktəblərdə öyrədilməsi, xüsusən də Konservatoriyada tədris edilməsi, onların unudulmasının qarşısını almaq baxımından, eləcə də klassik musiqi irsimizin qorunması və bu möhtəşəm mənəvi abidələrimizin yaşadılması yolunda xeyirxah bir xidmət olardı.

## Ədəbiyyat


1. Qurbanov B. Müziğin Bazı Sanatsal - Estetik Sorunları. Erzurum, Aktif yayın evi, 2005.
2. Altaylı S. Azərbaycan türkcəsi sözlüyü, II c., İstanbul, 1994.
3. İmamverdiyev. İ. Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri, Bakı, "Nafta-Pres", 2008.
4. Türkcə sözlük. I c., Ankara, 1988.
5. Qafkasyalı Ə . İran Türkləri aşıq mühitləri. Ərzurum, 2006.
6. Həkimov M. İ. Azərbaycan klassik aşıq yaradıcılığı. Bakı, APİ, 1982.
7. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı, Yazıçı, 1984.